## “Xudafərin” - 80

# Yurddaşlarımızın könül sovqatı

1932-ci ildən “Lenin bayrağı” adı ilə nəşrə başlayan, sonralar “Kolxozçu” adı ilə işıq üzü görən və 1990-cı illərin əvvəllərindən isə «Xudafərin» adı ilə rayonumuzun əhalisinin görüşünə gələn doğma qəzetimizin gələn il 80 illiyi tamam olur. Sinəsində (səhifələrində) 80 ilə yaxın bir dövrün ictimai-siyasi, ədəbi-bədii, publisistik salnaməsini yaşadan "Xudafərin" qəzeti indi 80 yaşlı bir müdrik timsalındadır. “Xudafərin» o vaxtdan bu günə yaddaşlarımızın könül sovqatı olub. Yadımdadır, ilk yazım bu qəzetdə işıq üzü görəndə sevincimdən aşıbdaşdım və bir şeir də yazdım:

İlk qönçəm açıldı, tər qönçəm güldü «Kolxozçu» qəzeti səhifəsində. Ümidli günlərə işıq süzüldü Bu ilk məqaləmin şən töhfəsindən.

Daha bundan sonra mənim nə dərdim, Kədəri sevincə satdı bu qəlbim.

Bu gün şən soraqlı ilk nəğmə dərdim «Kolxozçu» qəzeti sütunlarından.

Hələ irəlidən xoş günlər gəlir,

Deməyin «yazıçı» yatıb-dincəlir. Çox yazım çıxacaq iki-bir, üç-bir Şakir Albalıyev imzası altda.

Doğrudan da, o vaxt sevindiyimdən özlüyümdə kiçik yazıçı adlandırdım özümü, doğrudan da, bəzən elə olurdu ki, qəzetin bir sayında iki, üç, bəzən dörd yazım çap olunurdu. Hərdən o günlərə işarə ilə RİH başçısının birinci müavini olan Əyyub Quluyev mənə deyir ki, “gah Albalı Şakir, gah Şakir Albalı, gah da Əlifoğlu Şakir imzaları ilə çıxışlar edərdin»...

O vaxtlar məktəbli idim. Poçtalyon Rəşid ibrahimov qəzet-jurnalları poçtalyon çantasına yığıb qapı-qapı abunəçilərə paylayardı. Həmişə səbirsizliklə onun səsinin eşidiləcəyini gözləyirdim. Qapıdan ildırım kimi çıxar, quş təki Rəşid dayının başının üstünü alardım, qonşularımızın, əmimgilin, Surxay dayıgilin də qəzetlərini alıb baxardım, sonra özlərinə verərdim. Hətta Rəşid dayının bu gəlişinə «Poçtalyon» adlı bir şeir də qoşmuşdum:

Birinci gətirər hər xoş müjdəni Bahar soraqlısı qaranquş kimi. Verdiyi qəzetlər, məktublar nədir? Bülbül oxumamış təzə nəğməmi?!

Bu bir bəndlik şeirimi də o vaxtlar bir məqaləmin içərisinə daxil edib “Xudafərin”də çap elətdirmişdim də...

Bütün bunları mənə «Kolxozçu» («Xudafərin») qəzeti ilə bağlı məndə oyanan həzin xatirələr yazdırdı. Doğrudan da, «Xudafərin» hər birimizin könül sovqatıdır, necə ki, bir pirdən-ziyarətgahdan bir nişangah-tutiyə götürüb onu həmişəlik özümüzdə müqəddəs könül sovqatı kimi saxlayıb əzizləyirik, eləcə də «Xudafərin»imiz istər o çağlarda, istər də elə indi yurdumuzun nişanəsini əks etdirən könül sovqatımız kimi hər birimizə tutiyə kimi əzizdir, müqəddəsdir...

...Tutiyə kimi, könül sovqatı kimi müqəddəs saydığımız «Xudafərin» qəzetinin hər nömrəsini çapa hazırlayanda, çapdan çıxardanda daxili dünyamda çox böyük təlaş hissi, eyni zamanda fərəh iftixar duyğusu keçirdirəm. Ona görə təlaş-həyacan duyğusu yaşayıram ki, tutiyə kimi müqəddəs olan bu könül sovqatını oxucu qarşısına layiqli şəkildə çıxarda bilmək adamdan böyük məsuliyyət istəyir. O səbəbdən fərəh-qürur hissi keçirdirəm ki, rayon İcra Hakimiyyətinin rəsmi orqanı olan «Xudafərin»imizi etibarlı əl kimi mənə tapşırıblar - bu inamı doğrultmaq və «Xudafərin»imizi yaşatmaq missiyası müqəddəs yük kimi boynumdan asılıb. Bu əqidədəyəm ki, mənim özümdən başlamış hər bir sıravi cəbrayıllıya qədər hamımız «Xudafərin» qəzetinin hər sayını yurd yerlərimizin əziz-giramı nişangahı kimi gözümüzün üstünə qoyub, öpüb-əzizləyirik: «Xudafərin harayından qalan mən!»... devizimiz də onu bəyan edir ki, doğma yurdumuzun hər bir guşəsi bizə qədim, ulu «Xudafərin» körpüsü kimi əzizdir, bu gün əlimizdə yalnız o yurdun, o torpağın, o cümlədən də doğma Xudafərinimizin nişangahı kimi «Xudafərin» qəzetimiz var və onun səhifələrində doğma və qədim-qayım ellərimizin ruhu yaşayır.

Doğma yurd, el-oba müqəddəsliyini bir şanlı estafet olaraq nəsillərdən-nəsillərə ötürərək yaşadır «Xudafərin»imiz...

1993-cü ilin 23 avqustundan sonra məcburi köçkünlük dövründə qəzetimizin nəşri bir müddət ara verdi. Ruhu şad olsun Seyfəddin müəllimin. Bu müqəddəs yükün altına çiyin verdi - min bir əzab-əziyyətlə Bakıdan Saatlıya gələrdi. Ruhu şad olsun Zəbulla müəllimin də, çox humanist, gözəl ziyalı idi. Saatlı RİH-nin orqanı olan «Dönüş» qəzetinin baş redaktoru idi. O vaxtlar hələ rayon qəzetləri rayonlarda linotip üsulu ilə yüz cür əzab-əziyyət bahasına çap olunurdu. Seyfəddin müəllim də gəlib Saatlıda «Dönüş» qəzetinə sığındı, Zəbulla İmanovun qayğıkeşliyi sayəsində ayda bir, iki ayda bir «Xudafərin»imizin işıq üzü görməsinə nail oldlu...

Dünyasını dəyişən vaxtlaracan (səhv etmirəmsə, 2002-ci ilin avqustunacan) Seyfəddin Əliyev «Xudafərin»imizi yaşatdı. Deyəsən, ondan sonra da arada bir neçə dəfə də Yusif Dirili və «Xudafərin»çi ziyalılarımız «Xudafərin»in işıq üzü görməsinə nail oldular.

Rayon İcra Hakimiyyətinin başçısı cənab Mahmud Quliyevin təşəbbüsü ilə yazıçı-publisist Sahib Abdullayev rayon qəzetinə Baş redaktor gətiriləndə mən də baş redaktorun müavini kimi fəaliyyətə başladım. Gözü ilə, kirpiyi ilə qor götürərək 2008-ci ilin sonunadək baş redaktor kimi çalışan Sahib müəllim qəzetin maraqlı, rəngarəng üslubda çıxarılmasına nail oldu, sevincimizi-qəmimizi oxucularımızla paylaşdıq...

2009-cu ilin yanvarından Cəbrayıl rayon icra Hakimiyyəti Başçısının Sərəncamı ilə mən qəzetə Baş redaktor təyin olundum...

Əziz oxucular! Mən nisbətən yaxın keçmişi varaqladım, qəzetimizlə bağlı sizlərə yığcam məlumat çatdırdım. İndisə növbə sizindir, «Xudafərin-80» rubrikası ixtiyarınızdadır. Qəzetin keçmişi ilə bağlı yaddaqalımlı xatirələrinizi, bildikl,

ərinizi bizə yazın. Allah eləsin ki, doğma «Xudafərin»imizin 80 illiyini özünün adaşı olan doğma Xudafərin körpülərində, 80 il əvvəl nəşrə başladığı doğma Cəbrayıl torpaqlarında qeyd eləmək hər birimizın nəsibimiz olsun!

Doğma diyarımız Cəbrayılımızın salnaməsinə güzgü tutan «Xudafərin» qəzetinin 80 illiyi qarşısında mənəvi hesabat vermək isə hər birimizin ziyalılıq borcumuzdur!

***Şakir ALBALIYEV***

*“Xudafərin” №3-4, 2011.*

Kredo 2019.- 25 aprel.- S.3.